BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ AVROPA İQTİSADİ KOMİSSİYASI

# Strateji Ekoloji Qiymətləndirmə Protokolu

## Faktlar və faydalar



EaPGREEN
Ətraf mühit və inkişaf naminə tərəfdaşlıq

Bu layihə Aİ tərəfindən maliyyələşdirilir

BMT AİK

## MİNNƏTDARLIQ SÖZLƏRİ

Bu nəşr Avropa İttifaqının "Şərq tərəfdaşlığı ölkələrində iqtisadiyyatın yaşıllaşdırılması" (EaP GREEN) layihəsinin məsləhətçilərinin iştirakı və maliyyə dəstəyi və ZOİ Environment Network ilə birlikdə BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd kontekstində Ətraf mühitə təsirin Qiymətləndirilməsi üzrə Konvensiyasının (Espo Konvensiyası) Strateji Ekoloji Qiymətləndirmə Protokolunun Katibliyi tərəfindən hazırlanmışdır. İttifaqın "Şərq tərəfdaşlığı ölkələrində iqtisadiyyatın yaşıllaşdırılması" (EaP GREEN) layihəsi Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və dörd tərəfdaş təşkilat tərəfindən həyata keçirilir: OECD, UNECE, UNEP və UNIDO.

EaP GREEN layihəsinin ümumi məqsədi iqtisadi inkişaf prosesinin ətraf mühitin tənəzzülü və resursların tükənməsi prosesindən ayrılmasında Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramına daxil olan 6 ölkəyə – Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukraynaya dəstək göstərməkdir. Daha dəqiq desək, EaP GREEN layihəsinin məqsədi:

– Regional və beynəlxalq sazişlərə və proseslərə, o cümlədən müvafiq strateji sahələrdə mövcud Aİ qaydalarına uyğun olaraq gələcək siyasətin formalaşdırılması üçün əsaslı hüquqi bazanın yaradılması məqsədilə dayanıqlı istehlak və istehsal (DİI) proseslərini milli inkişaf planlarına, qanunvericilik və tənzimləyici çərçivələrə inteqrasiya etmək;
– Ekoloji baxımdan dayanıqlı iqtisadi inkişafın planlaşdırılması üçün zəruri vasitə kimi Strateji Ekoloji Qiymətləndirmədən (SEQ) və Ətraf Mühitə Təsirin Qiymətləndirilməsindən (ƏMTQ) istifadəni genişləndirilmək və;
– Seçilmiş iqtisadi sektorlarda (istehsal, kənd təsərrüfatı, ərzaq istehsalı və emalı, tikinti) dayanıqlı istehlak və istehsal təcrübələrinin qəbul edilməsi vasitəsilə iqtisadiyyatın yaşıllaşdırılmasını təşviq etməkdir.

EaP GREEN layihəsi 3 əsas komponentdən təşkil olunmuşdur:
– İdarəetmə və maliyyələşdirmə alətləri
– Strateji Ekoloji Qiymətləndirmə və Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi: DİI siyasətinin həyata keçirilməsini dəstəkləmə
– Pilot layihələr.

EaP GREEN layihəsi Varşava Şərq Tərəfdaşlığı Sammitinin Birgə Bəyanatında və Astanada keçirilmiş "Avropa üzrə Ətraf Mühit"ə dair 7-ci Nazirlər Konfransının (2011-ci il, sentyabr) Bəyanatında da qeyd edildiyi kimi tərəfdaş ölkələrin iqtisadiyyatlarının yaşıllaşdırılması istiqamətində fəaliyyət göstərmək öhdəliyini dəstəkləyir. Bu proqramların məqsədləri "Rio+20" sammitinin yekun sənədində razılaşdırılmış nəticələrə uyğun gəlir.

EaP GREEN layihəsi çərçivəsində BMT AİK-in yardımı 3 əsas sahəyə yönəldilmişdir:

1. Strateji Ekoloji Qiymətləndirmə üzrə qanunvericiliyin və zəruri olduqda, Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə qanunvericiliyin nəzərdən keçirilməsi də daxil olmaqla, mövcud milli tənzimləyici və qanunvericilik çərçivələrinə baxış, Strateji Ekoloji Qiymətləndirmə üzrə qanun layihəsinin hazırlanması və sub-regional səviyyədə nəzərdən keçirilməsi
2. SEQ üzrə milli və subregional səviyyəli təlimlər də daxil olmaqla, SEQ/ƏMTQ prosedurları ilə bağlı potensialın gücləndirilməsi; Yerli təlimat sənədlərinin yaradılması; koordinasiya və təcrübənin bölüşdürülməsi sahəsində tədbirlərin görülməsi,
3. SEQ üzrə pilot layihələrin yaradılması, yuxarıda göstərilmiş hüquqi çərçivələrin nəzərdən keçirilməsi, təlim seminarlarının təşkil edilməsi, pilot layihələrin həyata keçirilməsi və strateji dialoqun aparılması.

Göstərilən fəaliyyətlər BMK AİK-in "Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Konvensiyası (Espoo Konvensiyası) çərçivəsində hazırlanmış fəaliyyət planı ilə əlaqəlidir və SEQ Protokolunun təsdiq edilməsini və həyata keçirilməsini təşviq edir.

**Qrafika:** Carolyne Daniel, A. Papanastasiou, J. Wille ZOİ Environment Network),
**İngilis dilindəki mətnin redaktoru:** (ZOİ Environment Network)
**Konsepsiya:** Elena Santer (BMT AİK)
**Mətn:** Elena Santer, Martin Smutny (Integra Consulting Ltd.), Oksana Yakovenko ZOİ Environment Network), Christina Stuhlberger ZOİ Environment Network)
**Layihə Koordinatoru:** Christina Stuhlberger (ZOİ Environment Network)
**Layihə Meneceri:** Tea Aulavuo (BMT AİK), Espoo Konvensiyasının və Strateji Ekoloji Qiymətləndirmə Protokolunun Katibliyi
**Digər iştirakçılar:** Aphrodite Smagadi (BMT AİK), Maia Gachechiladze-Bozhesku (Ecoline International Ltd), Dmytro Skrylnikov (Ukrayna), Jiri Dusik (Integra Consulting Ltd.)

AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT AİK Espoo Konvensiyasının dəstəyi ilə sənəd ingilis dilindən Azərbaycan dilinə tərcümə edilmişdir.

## BƏYANAT

Bu hesabatın məzmunu BMT AİK-in, Aİ-nin və yaxud digər icraçı tərəfdaşların rəsmi mövqeyini əks etdirmir. Nə BMT AİK, nə də EAP GREEN proqramının icraçı tərəfdaşları bu hesabatda qeyd olunmuş məlumatların istifadəsinə görə məsuliyyət daşımır.

## MÜNDƏRİCAT CƏDVƏLİ


GİRİŞ ........ 2

01 STRATEJİ EKOLOJİ QİYMƏTLƏNDİRMƏ NƏDİR? ........ 3

02 SEQ ÜZRƏ BMT AİK-İN PROTOKOLU NƏDİR? ........ 4

03 SEQ NƏ ZAMAN TƏTBİQ OLUNUR? ........ 6

04 SEQ HANSI PLANLARI, PROQRAMLARI VƏ STRATEJİ SƏNƏDLƏRİ TƏLƏB EDİR? ........ 8

05 SEQ ÜZRƏ BMT AİK PROTOKOLU TƏRƏFİNDƏN MÜƏYYƏN OLUNMUŞ SEQ PROSEDURU ........ 10

06 SEQ-İN HANSI FAYDALARI VAR? ........ 12

07 ÖLKƏ SEQ ÜZRƏ PROTOKOLA NECƏ QOŞULA BİLƏR? ........ 26

# GİRİŞ

Bu hesabat məsləhətçilərin dəstəyi və "Şərq Tərəfdaşlığı ölkələrində iqtisadiyyatın yaşıllaşdırılması" üzrə Aİ proqramının (EaP GREEN) maliyyə dəstəyi ilə BMT-nin Avropa İqtisadi Komissiyasının "Sərhədlərarası kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya « (Espoo Konvensiyası) üzrə Strateji Ekoloji Qiymətləndirmə Protokolunun Katibliyi tərəfindən hazırlanmışdır.

Bu hesabat Protokolun təsdiqlənməsini və həyata keçirilməsini təşviq etmək üçün material hazırlamaq, o cümlədən hökumətlərin, ictimaiyyətin və digər maraqlı tərəflərin SEQ-in faydaları ilə bağlı məlumatlılığını artırmaq məqsədilə Büronun istəyinə cavab olaraq yaradılmışdır.

Bu sənəd milli SEQ sistemlərinin yaradılması, yaxud sistemli şəkildə həyata keçirilməsini təşviq etmə prosesində olan ölkələrdə dövlət qurumlarına, eyni zamanda ictimaiyyətə və digər maraqlı tərəflərə ünvanlanmışdır. Hesabat ölkələrin SEQ Protokoluna qoşulmağa hazır olmasına yardım edir.

Hesabat SEQ prosedurunu Protokoldakı müəyyən edilmiş müddəalara istinad edərək təqdim edir 1 və bu prosedur ilə bağlı anlaşılmazlıqları aradan qaldırmaqla, SEQ-in faydalarını göstərir. Bundan başqa, sənəd SEQ-in yaranma tarixi ilə bağlı məlumat və onun həyata keçirilməsinə dair praktiki nümunələr də təqdim edir. Sonda, Protokola qoşulmaq niyyətində olan ölkələr tərəfindən atılacaq addımlar da burada göstərilir.

# 01 STRATEJİ EKOLOJİ QİYMƏTLƏNDİRMƏ NƏDİR?

Dövlət qurumları insanlar və regionlar üçün inkişaf strategiyasını müəyyən etməklə cəmiyyətin gələcəyini formalaşdırır. Bu cür dövlət planları və proqramları, o cümlədən qaydalar və qanunlar kənd təsərrüfatı, enerji, sənaye, nəqliyyat, regional inkişaf, torpaqdan istifadə, tullantıların idarə olunması, yaxud suyun idarə olunması kimi fərqli sahələrdə layihələrlə bağlı gələcək qərarların qəbul olunması üçün əsas təşkil edir. Belə strateji sənədlər insanların həyatına təsir edən gələcək qərarlar üzərində böyük təsirə malikdir. Buna görə də, qərar qəbul etmə prosesində ekoloji və səhiyyə ilə bağlı amillərin də nəzərə alınması çox vacibdir. Bunu təmin etmək məqsədilə bir çox ölkələr Strateji Ekoloji Qiymətləndirmə, yaxud qısaca SEQ adlandırılan sistemli və gələcəyi düşünərək planlaşdırılmış mexanizm tətbiq edirlər.

SEQ hökumət qurumları tərəfindən hazırlanmış inkişaf strategiyaları, planlar və proqramlar ilə bağlı ətraf mühit və insan sağlamlığı məsələlərinin təhlil edilməsi və cavablandırılması üçün addım-addım həyata keçirilən prosedurdur. Qərar vermə səlahiyyətinə malik şəxslərin hər bir planlaşdırma imkanının müsbət və mənfi tərəflərini müqayisə edə bilməsi üçün diqqətə alınacaq bu cür məsələlər müvafiq qurumlar və ictimaiyyət ilə məsləhətləşməklə əldə olunur. Beləliklə də, SEQ qərar vermə prosesində şəffaflığı və ictimai inam səviyyəsini artırır. Nəticə etibarilə, SEQ insan sağlamlığına və ətraf mühitə fayda verən sağlam iqtisadi inkişaf imkanlarını təmin etmək üçün bir vasitəyə çevrilir

## SEQ-in tərifi

SEQ üzrə BMT AİK-in Protokolu strateji ekoloji qiymətləndirməni “....ekoloji hesabatın həcminin və onun hazırlanma miqyasının müəyyən edilməsi, ictimaiyyətin iştirakının və məsləhətləşmələrin təmin edilməsi, ekoloji hesabatın, habelə ictimaiyyətin iştirakının və məsləhətləşmələrin plan və yaproqramda nəzərə alınmasından ibarət, insan sağlamlığı da daxil olmaqla ətraf mühitə təsirlərin qiymətləndirilməsi” kimi müəyyən edir.” **(Maddə 2.6)**

## 02 SEQ ÜZRƏ BMT AİK-İN PROTOKOLU NƏDİR?

SEQ Protokolu bu sazişin tərəfdaşı olan ölkələrdə SEQ-in həyata keçirilməsi üçün hüquqi öhdəlikləri və metodiki bazanı müəyyən edən beynəlxalq sazişdir. BMT-nin bütün üzvləri Protokola qoşula bilər. Bu Protokol prosedural və metodoloji məzmunlu tələblər də daxil olmaqla, SEQ-in həyata keçirilməsi üçün bütün tələbləri müəyyən edir. SEQ üzrə Protokolun Tətbiqinə Dəstək üçün Təlimat (2011) 2 və Sadələşdirilmiş Resurs Təlimatı (2012) 3 kimi istiqamətləndirici materiallar SEQ-in həyata keçirilməsi üzrə faydalı istinad mənbələridir.

Bu Protokol 1991-ci ildə qəbul edilmiş BMT AİK-in “Sərhədlərarası kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi haqqında Konvensiyasının” (Espoo Konvensiyası) əhatə dairəsini genişləndirmək üçün nəzərdə tutulsa da, hüquqi baxımdan ayrıca bir alətdir. Bu o deməkdir ki, ölkə Konvensiyanın tərəfi olmadan da Protokola qoşula bilər. Bundan başqa, Konvensiya yalnız milli sərhədlər boyunca əhəmiyyətli dərəcədə əks təsir göstərəcəyi güman edilən planlaşdırılmış fəaliyyətlərə (layihələrə) tətbiq olunur. Lakin bundan fərqli olaraq, Protokol əsasən milli planlara və proqramlara tətbiq olunur. Əgər Protokolun transsərhəd kontekstdə təsir göstərməsi ehtimalı yaranarsa, bu zaman transsərhəd vəziyyətlə bağlı məsləhətləşmələr təmin edilməlidir ( Maddə 10).

Bu Protokol Avropa İttifaqının SEQ üzrə Təlimatına oxşardır 4, lakin ətraf mühitə təsirlə yanaşı, əhalinin sağlamlığına xüsusi diqqət yetirməsilə həmin Təlimatdan fərqlənir. BMT AİK Konvensiyası ilə müzakirələr nəticəsində, Ətraf mühit ilə bağlı məlumatlara çıxış və ictimaiyyətin ətraf mühit ilə bağlı qərarvermə prosesində iştirakına dair Konvensiya (Orxus Konvensiyası) müddəaları Protokola daxil edilmişdir.

**1969**
ABŞ-IN MİLLİ EKOLOJİ SİYASƏTİ İLƏ BAĞLI QANUN QƏBUL EDİLMİŞDİR

Ətraf mühitə təsirin qiymətləndirmələri ilk dəfə olaraq yerli qanunvericiliyə daxil edilmişdir.

**1985**
Aİ-NİN ƏMTQ DİREKTİVİ QƏBUL EDİLMİŞDİR.

**1992**
Ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyro Bəyannaməsində deyilir: “Ətraf mühit üzərində əhəmiyyətli dərəcədə mənfi təsirə malik olması güman edilən və səlahiyyətli yerli qurumlar tərəfindən qərarların qəbul edilməsi nəzərdə tutulan fəaliyyətlər üzrə milli vasitə kimi ətraf mühitə təsirin qiymətləndirilməsi həyata keçiriləcək” . Maddə 17.

**1997**
TRANSSƏRHƏD KONTEKSTDƏ ƏMTQ İLƏ BAĞLI KONVENSİYA QƏBUL EDİLMİŞDİR

**1997**
TRANSSƏRHƏD KONTEKSTDƏ ƏMTQ İLƏ BAĞLI KONVENSİYA QÜVVƏYƏ MİNMİŞDİR.

**1998**
Məlumatlara çıxış, qərarvermə prosesində ictimaiyyətin iştirakı və ekoloji məsələlərdə ədalətin əldə olunması üzrə Orxusun Daniş şəhərində qəbul edilmiş Konvensiya ətraf mühitə təsirin qiymətləndirilməsi çərçivəsində ictimaiyyətin iştirakını nəzərdə tutur.

**1999**
Ətraf mühit və Sağlamlıq üzrə Nazirlərin Üçüncü Konfransında deyilir: “Biz insan sağlamlığı və təhlükəsizliyi üzərində təsirləri tam şəkildə əhatə edən ətraf mühitə təsirin qiymətləndirilməsi prosesini həyata keçirəcəyik. Biz ölkələri təklif olunan strategiyaların, planların, proqramların və ümumi qaydaların ətraf mühitə və sağlamlığa təsirləri üzrə strateji qiymətləndirmə mexanizmi təqdim etməyə və həyata keçirməyə dəvət edirik. Biz həmçinin beynəlxalq maliyyə təşkilatlarını da bu prosedurları icra etməyə dəvət edirik. QHT-lər və ictimaiyyət üzvləri bu bənddə müəyyən olunmuş prosedurlarda müvafiq olaraq iştirak edəcəklər.”

**2000**
BMT “dayanıqlı inkişaf prinsiplərinin ölkə planlarına və proqramlarına daxil edilməsi və ekoloji resurslarının itirilməsinin qarşısını alma” məqsədi də(7-ci məqsəd) daxil olmaqla, Minillik İnkişaf Məqsədləri Bəyannaməsini qəbul etmişdir.

**2001**
Aİ SEQ DİREKTİVİ QƏBUL EDİLMİŞDİR

**2002**
2002-ci ildə Davamlı İnkişaf üzrə Dünya Sammitində razılaşdırılmış Yohansburq İcra Planı dayanıqlı inkişaf gündəliyinin təkmilləşdirilməsi üçün fundamental tələblər kimi strateji çərçivələrin və tarazlaşdırılmış qərarvermə proseslərinin əhəmiyyətini vurğulayır

**2003**
SEQ PROTOKOLU QƏBUL EDİLMİŞDİR.

**2005**
Paris Bəyannaməsi donor təşkilatlar və onların tərəfdaş ölkələri qarşısında aşağıdakı öhdəliyi qoyur: “ƏMTQ-nin tətbiq edilməsini və maraqlı tərəflərlə məsləhətləşmələr də daxil olmaqla, layihələr üzrə ümumi prosedurların dərinləşdirilməsini; və “strateji ekoloji qiymətləndirmə” üçün ümumi yanaşmaların hazırlanmasını və tətbiq edilməsini sektor səviyyəsində və milli səviyyədə həyata keçirmək”.

**2010**
SEQ PROTOKOLU QÜVVƏYƏ MİNMİŞDİR

**2014**
SEQ PROTOKOLU BÜTÜN ÜZV DÖVLƏTLƏR ÜÇÜN AÇIQ EDİLMİŞDİR

**20016-2030**
DAYANIQLI İNKİŞAFIN GÜNDƏLİYİ

SEQ Tərəf ölkələrə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün alətdir

Son olaraq,Protokol siyasət və qanunvericiliyin qiymətləndirilməsi üçün icbari olmayan çərçivə müəyyən edir.

Protokolu ona tərəf ölkələr dayanıqlı inkişaf üçün əsas alət hesab edirlər. Onun icrasının 2016-cı ilin yanvar ayında qüvvəyə minmiş “Dayanıqlı inkişaf üzrə 2030-cu ilin gündəliyi”ndə müəyyən edilmiş davamlı inkişaf məqsədlərinə və hədəflərinə nail olmaqda ölkələrə kömək edəcəyi və BMT üzvü olan ölkələrin qarşıdakı 15 ildə və ondan sonrakı dövrdə onların qərarlarına istiqamət verəcəyi gözlənilir.

## İLKİN FAKTLAR

SEQ Protokolu:

• 2003-cü ildə Kiyevdə qəbul edilmişdir;
• 2010-cu ildən bəri qüvvədədir;
• BMT-yə üzv bütün dövlətlərə açıqdır;
• 28 tərəfdaşı var (30 mart, 2016-cı il tarixinə görə)5

## SEQ ÜZRƏ PROTOKOLUN İŞTİRAKÇILARI



## 03 SEQ NƏ ZAMAN TƏTBİQ OLUNUR?

Müəyyən bir layihənin ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) ilə müqayisədə, SEQ qərarvermə prosesinə daha erkən vaxtda müdaxilə edir. Bu isə SEQ-ə imkan verir ki, uğursuz planlaşdırma nəticəsində qarşısı alınmaz təsirləri və baha başa gələn xətaları önləyə bilsin. SEQ eyni zamanda ƏMTQ subyekti olan gələcək layihələr və ətraf mühitə təsir edə biləcək digər bir çox potensial fəaliyyətlər üzrə çərçivə müəyyənləşdirən planlaşdırma və proqramın hazırlanma səviyyəsində tətbiq edilir. ƏMTQ ilə müqayisədə SEQ-in ekoloji faydası daha çoxdur. Məsələn, yol inşasının ətraf mühitə təsirini minimallaşdırmaq ilə müqayisədə daha dayanıqlı nəqliyyat siyasətinin yaradılması daha çox səmərəlidir.




Praktikada SEQ planlaşdırma və proqramın yaradılması prosesi ilə birlikdə (yaxud cüzi gecikmə ilə) başladılmalıdır. Bu yanaşma planın, proqramın hazırlanması zamanı SEQ ilə bağlı məlumatların plana, yaxud proqrama daxil edilməsi üçün imkan yaradır və beləliklə də, strateji sənədin qəbul edilməsi zamanı və yaxud qəbul edilməsindən əvvəl SEQ nəticələrinin müvafiq olaraq nəzərə alınmasını təmin edir.

## SEQ VƏ PROTOKOL İLƏ BAĞLI ÜMUMİ MƏLUMAT

SEQ milli və yerli səviyyədə strateji planlaşdırma üçün layihə çərçivəsində ətraf mühitə təsirin qiymətləndirilməsi prinsiplərinin genişləndirilməsi kimi inkişaf etmişdir.

ƏMTQ planlaşdırılmış sənaye fəaliyyətlərinin ətraf mühitə təsirini proqnozlaşdırmaq, mənfi təsirləri azaltmaq üçün imkanlar müəyyənləşdirmək və belə fəaliyyətlərin müsbət təsirlərini artırmaq məqsədilə bir vasitə kimi 1960-cı illərin sonunda ABŞ-da tətbiq olunmuşdur. 1970-ci illərdə və 1980-ci illərin əvvəlində ƏMTQ bir sıra digər ölkələrdə də geniş şəkildə istifadə edilməyə başlamışdır. 1980-ci ilin ortalarına qədər ƏMTQ Avropa boyunca tətbiq olunmağa başlamışdır. Avropa İttifaqına üzv olan ölkələr Avropa Komissiyasının ƏMTQ Direktivini (85/337/ Avropa İqtisadi Komissiyası) qəbul etmiş, Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya 6 ölkələri isə özlərinin xüsusi ətraf mühitə təsirin qiymətləndirilməsi (OVOS)7 və Dövlət Ekoloji Ekspertiza (SEE) sxemlərini yaratmışdır. 1990-cı illərin əvvəlinə qədər ƏMTQ ilə bağlı milli prosedurlar BMT AİK-in bütün ölkələrində tətbiq olunmuşdur. Milli sərhədləri aşan layihələrdə ətraf mühit ilə bağlı problemləri həll etmək üçün ölkələr BMT AİK-in dəstəyi ilə "Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi Konvensiya"sına (Espoo Konvensiyası) qoşulmuşdur. Espoo Konvensiyası 1991-ci ildə Finlandiyanın Espoo şəhərində imzalanmış və 1997-ci ildə qüvvəyə minmişdir. 2016-cı ilin əvvəlinə qədər Avropa İttifaqı da daxil olmaqla, 45 ölkə Konvensiyanı təsdiq etmişdir.

1970-ci illərin sonuna və 1980-ci ilin əvvəlinə qədər dövlətlər ətraf mühitin kifayət qədər qorunmasında layihə səviyyəli ƏMTQ sxemlərində müəyyən nöqsanlar müşahidə etmişdir: ƏMTQ nisbətən dar coğrafi ərazidə yalnız məhdud təsirə malik olduğu halda, mənfi ekoloji nəticələrin qarşısını ala bilməyən qərarlar daha erkən vaxtda, siyasi yaxud strateji səviyyədə qəbul olunmuşdur. Bu isə regional və məkan planlaşdırmasında istifadə olunan yanaşmaların ardınca SEQ konsepsiyasının yaranmasına səbəb olmuşdur.

1990-cı ilə qədər SEQ üzrə müddəalar Kanada, Çexiya Respublikası, Danimarka, Birləşmiş Krallıq və Birləşmiş Ştatların yerli hüquqi qanunvericiliyinə tətbiq olunmuşdur. Həmin qanunlar SEQ üzrə öhdəlikləri "davamlılığın qiymətləndirilməsi" çərçivəsində nəzərdə tutur. 2001-ci ildə Avropa Komissiyası "Ətraf mühit üzrə Konkret Plan və Proqramların Təsirlərinin Qiymətləndirilməsinə dair Avropa Direktivi"ni (2001/42/EC-SEQ Direktivi adlandırılır) qəbul etmişdir. Həmin dövrdə Avropa İttifaqına üzv olmuş ölkələr SEQ Direktivini 2004-cü ilə qədər öz qanunvericiliklərinə daxil etməli idilər.

BMT-nin Ətraf Mühit və İnkişaf ilə bağlı Konfransından (Rio-de-Janeyro, Braziliya, 1992-ci il), xüsusilə də Rio-de-Janeyro Bəyannaməsinin 4-cü və 10-cu bəndlərindən, 21-ci gündəlikdən, habelə Ətraf Mühit və Sağlamlıq üzrə Nazirlərin Üçüncü Konfransının nəticəsindən (London, 1999-cu il), Dayanıqlı İnkişaf üzrə Dünya Sammitindən (Yohansburq, Cənubi Afrika, 2002-ci il) ilham alaraq, SEQ üzrə beynəlxalq hüquqi çərçivə tətbiq olunmuşdur. Nəticə etibarilə, Espo Konvensiyası 2003-cü ilin may ayında Ukraynanın Kiyev şəhərində Avropa İttifaqı da daxil olmaqla, 38 ölkə tərəfindən təsdiqlənmiş BMT AİK-in SEQ Protokolu ilə tamamlanmışdır.
SEQ Protokolu 2010-cu ildə qüvvəyə minmişdir.

## 04 SEQ HANSI PLANLARI, PROQRAMLARI VƏ STRATEJİ SƏNƏDLƏRİ TƏLƏB EDİR?

Protokola əsasən, SEQ on üç iqtisadi sektorda milli planvə proqramlar və həmin planların modifikasiyası üçün məcburi xarakter daşıyır 8 **(Maddə 2.5)**. Bu halda nəzərdə tutulur ki, həmin planvə proqramlar milli qanunvericiliyə əsasən ƏMTQ-in aparılması tələb olunan spesifik layihələrin gələcək inkişafına dair razılığın əldə edilməsi üçün , çərçivə müəyyən edir. **(Maddə 4.2.)**

Digər iqtisadi sektorlardakı planlar və proqramlar, habelə yerli səviyyədə kiçik ərazilərin istifadəsini və cüzi dəyişiklikləri nəzərdə tutan planlar və proqramlar üçün SEQ avtomatik tətbiq olunmur. Bu halda SEQ-in tələb olunub-olunmamasını dövlətlər müəyyən etməlidir. Bu proses “skrininq” (qiymətləndirmə) adlanır **(Maddə 4.4)**. Əgər plan və ya proqram, yaxud plana edilmiş cüzi dəyişikliklər sağlamlıqla bağlı təsirlər daxil olmaqla, ciddi ekoloji təsirlər göstərə bilərsə, onda SEQ tətbiq olunmalıdır **(Maddə 5.1)**.

SEQ AŞAĞIDAKI SAHƏLƏRDƏKİ PLAN VƏ PROQRAMLAR ÜÇÜN MƏCBURİDİR:

- Kənd təsərrüfatı
- Meşəçilik
- Balıqçılıq
- Enerji
- Dağ-mədən də daxil olmaqla, sənaye
- Nəqliyyat
- Regional inkişaf
- Tullantıların idarə edilməsi
- Suyun idarə edilməsi
- Telekommunikasiya
- Turizm
- Şəhər və kənd planlaşdırması
- Torpaqdan istifadə

İki növ Plan və Proqrama SEQ tətbiq olunmur:

– Müstəsna olaraq milli müdafiəyə və mülki xarakterli fövqəladə hallara xidmət edən planlar və proqramlar **(Maddə 4.5)**
– Maliyyə, yaxud büdcə ilə bağlı planlar və proqramlar **(Maddə 4.5)**

SEQ üzrə Protokol dövlət qurumları tərəfindən milli və yerli səviyyələrdə hazırlanmış planlara və proqramlara tətbiq olunur. SEQ ölkənin Protokola qoşulmazdan əvvəl qəbul etdiyi mövcud strateji sənədlərə şamil olunmur, yalnız təklif olunan yeni planlara və proqramlara tətbiq olunur.

04 Sual:

*SEQ yalnız “plan” və ya “proqram” adlandırılan sənədlər üçün tələb olunurmu?*

Cavab:

Bir çox rəsmi strateji sənəddə Protokolda və SEQ Direktivində müəyyən edildiyi kimi planların, proqramların və siyasi qaydaların səciyyəvi xüsusiyyətləri olur, buna görə də SEQ tətbiq edilməlidir. Bu cür sənədlərin adətən “strategiya”, “konsepsiya”, “təlimat” yaxud “şərt” kimi müxtəlif adları olur. Bu əslində sənədin adı deyil, hər bir xüsusi vəziyyətdə SEQ-in aparılıb-aparılmamasını müəyyən edən sənəd məzmunu və xarakteridir. Protokolda göstərilir ki, “planlar və proqramlar” terminінə qanunverici, tənzimləyici yaxud inzibati prosedurlar ilə tələb olunan və parlament, yaxud hökumət tərəfindən rəsmi prosedur vasitəsilə qəbul olunan, yaxud qəbul üçün hazırlanan planlar və proqramlar (və həmin planlara/proqramlara istənilən bir dəyişiklik) daxildir. (Maddə 2.5)

Mənbə: Strateji Ekoloji Qiymətləndirmə üzrə Protokolun həyata keçirilməsinə ilkin baxış (2010-2012)

## Nümunə 1: MÜXTƏLİF ÖLKƏLƏRDƏ SEQ-İN TƏTBİQ OLUNDUĞU PLANLAR VƏ PROQRAMLAR

### Milli SEQ-lər

Danimarka: Nəqliyyat Nazirliyinin  illik investisiya planları
Fransada: Meşə idarəetmə planları (özəl meşələr də daxil olmaqla)
Macarıstan: İnvestisiyanın təşviq edilməsi üzrə planlar
Polşa: Şəhərlərin abadlaşdırılması proqramları
Monteneqro: Dənizdə neft və qazın kəşfiyyatı və çıxarılması proqramı

Mənbə: Prof. Jerzy Jendroska (Polşa)9

### TRANSSƏRHƏD SEQ-lər

Almaniya: Noxtendə dağ-mədən işlərinin aparılması üçün sektoral plan
Finlandiya: Çexiya Respublikasında nəzərdə tutulmuş yeni Nüvə Enerji Stansiyası ilə əlaqədar olaraq Hankivi üçün Ərazi planlaşdırılması: Liberek Regionunda Enerji konsepsiyasının planlaşdırılmasının aktuallaşdırılması

Mənbə: Strateji Ekoloji Qiymətləndirmə Protokolunun icrasına dair ilkicmal (2010-2012)[10]

### Təşəbbüs edilən SEQ prosedurlarının sayı

*2010-2012 –ci illərdə, seçilmiş ölkələrdə*

MACARISTAN




ÇEXİYA RESPUBLİKASI




* Kənd təsərrüfatı 1, meşəçilik 1 və balıqçılıq 1 daxildir

**Atmosfer havasının qorunması 4, təbiətin qorunması 2

BOLQARISTAN




*** SEQ-in tətbiq olunacağı şəhər və kənd planlaşdırmasına və yaxud torpaqdan istifadəyə əsasən kiçik ərazilərdə torpaqdan istifadə üzrə təfərrüatlı planlar daxildir. Buna baxmayaraq, bu cür planlar müxtəlif investisiya təkliflərinin hazırlanması -elektrik istehsalı, kənd yerlərinin inkişafı layihələri, istirahət üçün kəndlər və otel komplekslərinin yaradılması-üçün çərçivə müəyyən edir.

# 05 SEQ ÜZRƏ BMT AİK TƏRƏFİNDƏN MÜƏYYƏN OLUNMUŞ SEQ PROSEDURU



## 01 Əhatə dairəsinin müəyyən olunması (“scoping”)

Nəzərdə tutulmuş plan və ya proqramlar Protokolun tətbiq dairəsinə daxil olduqda, həmin plan, yaxud proqram üzrə SEQ əhatə dairəsinin müəyyən olunması ilə başlayır (Maddə 6). ”Scoping” daha sonra qiymətləndirmədə nəzərə alınması zəruri olan plan, yaxud proqramın icrası ilə əlaqədar ətraf mühit və sağlamlıq məsələlərini müəyyən edir. SEQ üzrə aydın əhatə dairəsinin daha erkən vaxtda müəyyən edilməsi diqqətin faktiki olaraq vacib olan işə yönəldilməsinə və resurslardan səmərəli şəkildə istifadə edilməsinə yardım edir. SEQ-in əhatə dairəsini müəyyən edərkən ətraf mühit və səhiyyə orqanları, o cümlədən ictimaiyyətlə məsləhətləşmələr aparılmalıdır.

## 02 Ətraf Mühit üzrə hesabat

Ekspertlər SEQ-in əhatə dairəsinin müəyyən olunması zamanı əldə edilmiş məlumatlarla plan və yaxud proqramların potensial ekoloji və sağlamlığa təsirlərini təhlil edir, mənfi təsirləri azalda biləcək yüngülləşdirici tədbirlər hazırlayır və müsbət təsirləri artırmaq üçün alternativ planlaşdırma imkanları təyin edirlər. Aşkar olunmuş bütün faktlar ekoloji hesabata daxil edilməli (sənədləşdirilməli) və təqdim edilməlidir (Maddə 7). SEQ Protokolu daxil ediləcək məlumatları müəyyən edir. Ekoloji hesabat plan və yaxud proqramın qəbul edilməsi ilə bağlı qərar verəcək qurumlara, məsələn Energetika Nazirliyinə, ya da ki Nəqliyyat Nazirliyinə dəyərli məlumatlar verir ki, nəticədə həmin qurumlar öz cəmiyyətlərində ən yaxşı qərarı vermək üçün ekoloji və sağlamlığa təsirləri nəzərə ala bilsinlər.

## 03 Məsləhətləşmələr

Hər hansı bir qərar qəbul edilməzdən əvvəl, ekoloji hesabatda aşkar olunmuş məsələlər üzrə ətraf mühit və səhiyyə qurumları ilə məsləhətləşmələr aparılmalı, əlaqədar ictimaiyyət öz fikirlərini paylaşması üçün dəvət edilməlidir (Maddə 8 və 9). Eyni zamanda, Protokol üzrə transsərhəd təsirlərin gözlənildiyi hallarda, qonşu ölkələr də öz narahatlıqlarını bildirə bilməlidir (Maddə 10). SEQ-də bu cür məsləhətləşmələr olduqca vacibdir və mümkün olduğu qədər şəffaf və universal nəticələrin əldə olunması üçün proses boyunca tətbiq olunmalıdır.

## 04 Qərarvermə

Məsləhətləşmələrin nəticələri məcburi deyil, lakin qərarvermə səlahiyyətinə malik şəxslər yekun qərarı qəbul etməzdən əvvəl bütün fikirləri nəzərə alırlar. Onlar qəbul etdikləri qərarla bağlı ətraf mühit və səhiyyə qurumlarını, habelə ictimaiyyəti məlumatlandırmalıdır.

## 05 Monitorinq

Qərar qəbul edilən kimi Tərəflər qəbul edilmiş plan və yaxud proqramın təsirlərini monitorinq etməli və monitorinq nəticələri ictimaiyyətə açıqlanmalıdır (Maddə 12)

# 06 SEQ-İN FAYDALARI NƏLƏRDİR?

## SEQ YÜKSƏK SƏVİYYƏDƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİ TƏMİN EDİR.

SEQ təklif olunan strateji inkişaf planlarınınehtimal olunan ətraf mühitə və sağlamlığına əhəmiyyətli təsirlərinimüəyyən edir. Bu mexanizm həmin təsirlərin azaldılması üçün planlaşdırma qurumlarına təkliflər verir və planlaşdırmada alternativ inkişaf imkanlarının nəzərdən keçirilməsinə şərait yaradır. Belə məlumatlarla planlaşdırma orqanları inkişafın qarşısı alınmaz və sərt nəticələrinin azaldılmasını, yaxud aradan qaldırılmasını, mühafizə edilən ərazilərin və yerlərin təhlükəsizliyini təmin edə və bio-müxtəlifliyin qorunub saxlanılması üçün əhəmiyyətli zonaları və digər əraziləri qoruya bilir.

06 Sual:

*SEQ-in həyata keçirilməsi çətin və məşəqqətli prosesdirmi?*

Cavab:

SEQ uzun və mürəkkəb tədqiqat obyekti deyil, əsasən planların və proqramların həyata keçirilməsi ilə bağlı potensial ətraf mühit və sağlamlıq risklərinə xüsusi diqqət yetirməklə, strateji səviyyədə qərarvermə prosesini təkmilləşdirmək üçün praktiki bir vasitədir. SEQ meydana gələnə bilən bütün mümkün nəticələrin öyrənilməsini nəzərdə tutmur, əsasən böyük təsirlərin ola biləcəyi bir neçə vacib məsələ ilə bağlı planlaşdırmaya diqqət yetirir. Bu cür yanaşma SEQ mexanizmini iqtisadi baxımdan səmərəli etməklə yanaşı, vaxta və pula da qənaət etməyə imkan verir. Müəssisələr və ekspertlər SEQ-in tətbiqi üzrə təcrübə qazandıqca, bu mexanizm onun həyata keçirilməsinə görə məsuliyyət daşıyan qurumların imkanlarına və zamanla əldə etdikləri biliklərinə uyğun olaraq tədricən çətinləşə bilər.

### Nümunə 2: EKOLOJİ AMİLLƏRİN İQTİSADİ PLANLAŞDIRMAYA DAXİL EDİLMƏSİ ÜZRƏ SEQ MEXANİZMİNİN TÖHVƏLƏRİ

SEQ mexanizminin tətbiqi nəticəsində Bolqarıstanda xüsusi sahələrdə bərpa oluna bilən enerji layihələri üzrə bəzi məhdudiyyətlər və qadağalar "Bərpa oluna bilən enerji üzrə milli fəaliyyət planının" ilkin layihəsinə daxil edilmişdir (2011-2020).

Bənzər şəkildə, yüksək səviyyəli səs-küyün yaxınlıqdakı insanları narahat etməsi ehtimalı olduğuna görə Danimarkada SEQ proseduru külək elektrik stansiyasının yerləşdirilməsi üçün nəzərdə tutulmuş bir ərazidən imtinaya səbəb olmuşdur.

Macarıstanda SEQ-in tətbiqi ilə bağlı nəticələrə əsasən, dövlət qurumları planlaşdırılmış tikinti layihələri ilə bağlı mənfi ekoloji təsirlərin qarşısını almaq üçün Pilisszentkereszt kəndində bütövlükdə qəsəbənin yaradılması planından imtina etmişdir.

Hollandiyada SEQ boru xətləri ilə bağlı ilkin milli strateji siyasətə müəyyən düzəlişlərin edilməsi ilə nəticələnmişdir: ekoloji baxımdan təhlükəsizlik məsələlərinə görə bəzi boru xətlərinin marşrutu dəyişdirilmiş yaxud, plandan çıxarılmışdır.

Rumıniyada SEQ-in nəticələrinə əsasən, "Təbiət-2000" şəbəkəsinin mövcud sahəsini qorumaq üçün sahilboyu ərazilərin müdafiəsi və bərpası üzrə əsas planda dəyişikliklər edilmişdir.

Mənbə: Strateji Ekoloji Qiymətləndirmə Protokolunun həyata keçirilməsinə ilkin baxış (2010-2012)[12]

## SEQ DAYANIQLI İQTİSADİ İNKİŞAFI TƏBLİĞ EDİR VƏ İQTİSADİYYATLARIN YAŞILLAŞMASINA YARDIM EDİR

SEQ planlaşdırıcılara iqtisadi maraq və hədəflər ilə tandem təşkil edən ətraf mühitin hədəflərinə (biomüxtəlifliyin qorunması, enerji səmərəliliyinin artırılması və ya iqlim dəyişməsinin azaldılması kimi) nail olmağa imkan verən bir alət təqdim edir. Bu, dayanıqlı iqtisadi inkişaf alternativlərini nəzərə almaqla və ekosistemlərin davamlılıq qabiliyyətləri daxilində gələcək iqtisadi inkişaf üçün hər iki tərəfin qazanmasını təmin edən seçimləri axtarmağı təşviq etməklə yaşıl iqtisadiyyat hədəflərinə çatmağa kömək edir.

06 Sual:

*SEQ varlı ölkələr üçün elit və bahalı alətdirmi ?*

Cavab:

SEQ-nin xərcləri SEQ-nin həcmi və mürəkkəbliyi ilə fərqlənir və bu, öz növbəsində qiymətləndirilən planın və ya proqramın ölçüsünə, qiymətləndiriləcək alternativlərin sayına və SEQ-nın seçilmiş plana uyğun metodologiyasına əsaslanır. SEQ haqqında Protokol xüsusi bir metodologiya nəzərdə tutmur, lakin Tərəflərə imkanları və iqtisadi kontekstlərinə uyğun prosedurlardan istifadə etməyə imkan verir. Buna görə də, hər hansı bir ölkə bir plan və ya proqram hazırlaya bilirsə, SEQ keçirmə imkanında olmalıdır.

Avropa İttifaqında həyata keçirilən tədqiqata əsasən, SEQ-nin həyata keçirilməsi üçün lazım olan xərclər planlaşdırma xərclərinin 5-dən 10% aralığında dəyişir və planların və ya proqramların (yəni planlaşdırma sənədində təklif olunan bütün fəaliyyətlərin və layihələrin maliyyələşdirilməsi) həyata keçirilməsi xərcləri ilə müqayisədə çox azdır. SEQ-in bahalı modelləşdirmə və ya digər mürəkkəb məlumat emalı vasitələrindən istifadə etmədiyi halda, SEQ-in icrası xərcləri əsasən SEQ prosedurunu icra etmək üçünbir çox ölkələrdə planlaşdırıcı orqan tərəfindən işə cəlb olunmuş SEQ mütəxəssislərinə ayrılan vəsaitlər təşkil edir. Təcrübə göstərir ki, orta miqyaslı SEQ-in icrası  50-100 iş günü tələb edir, daha mürəkkəb geniş miqyaslı SEQ emal ediləcək məlumatın həcminə uyğun olaraq 150 ilə 300 iş günü arasında dəyişir.

## SEQ PLANLAŞDIRMA VƏ PROQRAMLAŞDIRMA BACARIQLARINI İNKİŞAF ETDİRİR

SEQ ekoloji cəhətdən sağlam olmayan, lakin xərc səmərəliliyi baxımından tez-tez müraciət edilən alternativlərə diqqəti artırmaqla, ümumilikdə planlaşdırma və proqramlaşdırma proseslərinin ümumi keyfiyyətini təkmilləşdirir. Bu planlaşdırıcıları inkişafın daha davamlı formaları üçün bir sıra risklər və imkanlar barədə düşünməyə təşviq edir.

Planlaşdırma prosedurаlarının hələ müəyyənləşdirilmədiyi və bu sənədlərin müxtəlif hərəkətlərinin labirintini təmsil etdiyi ölkələr üçün bu məsələ xüsusi əhəmiyyət kəsb edir. Bu ölkələrdə yaxşı strukturlaşdırılmış bir SEQ çərçivə sənədinin tətbiqi onlarda planlaşdırmanı daha yaxşı, daha vaxta qənaətli və nəticədə daha çox səmərəli edir.

06 Sual:

*SEQ planlaşdırma prosesində yubanmalara səbəb olurmu?*

Cavab:

Bir sıra planlaşdırma və proqramlaşdırma addımları SEQ proseduru ilə məntiqi əlaqəyə malikdir. Bu baxımdan SEQ prosedurunu planlaşdırmaya ilkin mərhələdə inteqrasiya etmək daha səmərəlidir. Bu, vaxta qənaət edir və planlaşdırma proseduru üçün əlavə xərcləri mütəmadi olaraq saxlayır. Məlumat sorğusunun doldurulması, dövlət orqanları və ictimaiyyətlə məsləhətləşmələr apararkən və qiymətləndirmə proseslərini həyata keçirərkən Planlaşdırma və SEQ öz aralarında bu fəaliyyətləri bölüşə bilər. Planlaşdırma və SEQ işçi qrupları fəaliyyət göstərdikcə qarşılıqlı məlumat mübadiləsi apara və SEQ nəticələrinin plan və ya proqramın inkişafına inteqrasiya olunmasına imkan verən təkrarlayıcı bir proses yarada bilərlər. Təcrübə göstərir ki, 1-2 il müddətinənəzərdə tutulan planlaşdırma prosedurlarına SEQ tətbiq edilsə, bu onların planlaşdırma prosedurunun müddətini demək olar ki, uzatmır.

Nümunə 3:

MOLDOVA RESPUBLİKASI

Orhei şəhərinin Master Planının SEQ-i Master Plan üzrə inkişaf qrupunun əsas ətraf mühit problemlərini müəyyənləşdirməyə, yeni ekoloji məlumatlar əldə etməsinə, o cümlədən, biznes məlumatların və inkişaf seçimlərinin aid olduğu təbii ərazilərinin, sərhədlərinin və su hövzələrinin göstərildiyi ekoloji xəritələrin hazırlamağayardımçı oldu. Bu məlumat Master Planın ekoloji bölməsinin əhəmiyyətini daha da artırdı. SEQ həmçinin yol xəritələrinin təkmilləşdirilməsinə və tullantıların idarə olunması sistemlərinin yaradılmasına imkan yaratdı. SEQ hesabatından əldə olunan məlumatlara əsasən, Orhei şəhər idarəsi şəhərdə yol və tullantıların idarə edilməsi üçün lazımi vəsaitlərin ayrılmasını tələb etməklə milli hökumət və ya donorlara müraciət edə bilər.

SEQ zamanı məlumat çatışmazlıqlarının müəyyənləşdirilməsi, istər yerli, istərsə də respublika səviyyəsində müntəzəm statistik məlumat toplama və təhlil sxemlərinin təkmilləşdirilməsinə kömək etmişdir. SEQ-in nəticəsi olaraq, şəhər ətrafında əhalinin sıx məskunlaşdığı ərazilərdə səs-küy səviyyələrinin və daş mədən əməliyyatlarının təsirləri barəsində məlumat veriləcəkdir.

Mənbə: Moldova Respublikasının Ətraf Mühit Nazirliyi

## Plan və ya Proqramın hazırlanmasından sonra SEQ-in icrası (öncəki – sonrakı SEQ)




## Plan və ya Proqrama paralel olaraq icra edilən SEQ



## SEQ DAHA SƏMƏRƏLİ QƏRAR QƏBUL ETMƏYƏ SƏBƏB OLUR

SEQ planlaşdırıcılara öncədən - bir çox alternativlərin hələ də baxılmaq üçün açıq olduğu vaxtda ətraf mühit və səhiyyə məsələlərini qərarlarının qəbul edilməsi zamanı nəzərə almalarına imkan verir.
SEQ eyni zamanda sonradan müxtəlif mərhələlərdə və səviyyələrdə narahatlıq yaradan məsələlərə dair qərarların qəbul edilməsinə imkan verir. Planlaşdırma və ya proqramlaşdırma mərhələlərində daha yaxşı və daha ardıcıl qərar vermə əməliyyatlar mərhələsində daha az şikayət və daha az müzakirəyə səbəb olur. Belə qərar vermə prosesləri vaxta qənaət edir və xeyli səmərəlidir.

06 Sual:

*Bu o deməkdirmi ki, SEQ qərar qəbuletmə ixtiyarını planlaşdırmaya cavabdeh olan qurumdan ətraf mühitə məsul olan nazirliyə ötürür?*

Cavab:

SEQ üzrə Protokol SEQ prosedurunu və ətraf mühit və səhiyyə orqanları ilə məcburi məsləhətləşməni tələb edən plan və proqramları nəzərdə tutur. SEQ-in həyata keçirilməsi üçün rolların müəyyənləşdirilməsi səlahiyyəti Hökumətlərin ixtiyarında qalır. SEQ Protokolunun tərəfi olan bir çox ölkələrdə, planlaşdırmaya cavabdeh olan orqan SEQ prosedurunun icrası və ya koordinasiyası üçün əsas məsuliyyət daşıyır. Ətraf mühit və sağlamlığa cavabdeh olan nazirliklər adətən dəstəkləyici və / və ya məsləhətçi rolu icra edirlər. Onlar həmçinin SEQ sənədlərinin keyfiyyətini nəzərdən keçirir və planlaşdırma orqanlarına tövsiyələr verirlər, lakin onlar plan və ya proqram üzrə yekun qərarlara müdaxilə etmirlər.

Nümunə 4:
XORVATİYA

2014-cü ildə Poezeqa-Slavonija bölgəsi üçün Ərazi Planının SEQ-i keçirilmişdir. SEQ Hesabatını yekunlaşdırmaq üçün iki ay, ətraf mühtit, səhiyyə orqanları və ictimaiyyətlə müvafiq məsləhətləşmələri başa çatdırmaq üçün isə əlavə 4 ay  müddət tələb olunmuşdu. SEQ heyəti planlaşdırma heyəti və planlaşdırma üzrə səlahiyyətli orqan ilə yaxşı əlaqələr qurmuşdur ki, bu da nəticə etibari ilə yaxşı əməkdaşlığa töhfə vermişdir.Ətraf mühit və sağlamlıq təsirlərinin qiymətləndirilməsi üçün coğrafi informasiya sistemləri (GIS) metodologiyası seçilmişdi. SEQ komandası tərəfindən sanitariya mühafizə zonaları, daşqın düzənlikləri, qorunan təbiət əraziləri, kənd təsərrüfatı sahələri, əhəmiyyətlilandşaftlar və s. daxil olmaqla, torpaqdan istifadə məhdudiyyətləri müəyyənləşdirilmiş və müvafiq meyarlar təqdim edilmişdir. Bunlar qiymətləndirmədə əsas baza kimi istifadə edilmişdir. Planlaşdırılan fəaliyyətlərin həyata keçirilmə yerindən (məhdudlaşdırma zonalarının daxilində və xaricində olmasından) asılı olaraq, yumşaltma tədbirləri təklif edilmişdir. Bundan sonra, planlaşdırma heyəti və planlaşdırma orqanı ilə  SEQ nəticələrinə dair bir neçə müzakirəlrtəşkil edilmişdir. Bir çox tədbirlər qəbul edilərək plana inteqrasiya edilmişdir. İndi layihələr yalnız məhdudlaşdırılmayanzonalar üçün hazırlanır.

Mənbə: Ivana Saric, Dvocut Ecro Ltd. (müsahibə)

## Nümunə 5:
## ÇEXİYA Respublikası

“Çexiya Respublikasının Müəssisələr və İnnovasiyalar 2007-2014” əməliyyat planına tətbiq edilən SEQ bu proqram çərçivəsində maliyyələşdiriləcək fərdi layihələrin qiymətləndirilməsi və seçilməsi zamanı nəzərə alınacaq 18 ətraf mühit və sağlamlıq meyarını əhatə edən ekoloji və səhiyyə monitorinqi üçün ümumi sxem təklif etmişdir. Ətraf Mühit Nazirliyi tərəfindən verilmiş yekun SEQ bəyanatı bu meyarların layihənin qiymətləndirilməsi və seçilməsi üçün ümumi sistemə inteqrasiya olunmasını tövsiyə etmişdir. Proqramın hazırlanması və icrasında məsul olan Sənaye və Ticarət Nazirliyi, proqram çərçivəsində maliyyələşdirməyə uyğun olan layihələrə yalnız ən münasib hesab edilən meyarı qəbul etmişdir. Bütün SEQ meyarları proqramın seçim prosesinə daxil olmasına baxmayaraq, xüsusi önəm verilən SEQ meyarı ilə təmin edilmiş həmin layihələrin seçilməsi Nazirliyə proqramın ekoloji və səhiyyə komponentlərini yaxşılaşdırmağa kömək etmişdir.

Mənbə: Integra Consulting LTD

## SEQ İDARƏÇİLİYİ

SEQ planlaşdırma və proqramlaşdırma sahəsində daha da şəffaflığın artırılması yolu ilə qərarların qəbul edilməsində yaxşı idarəetmə sistemini təşviq edir. SEQ əsas mərkəzi və yerli planlaşdırma orqanları, biznes və vətəndaş cəmiyyəti arasında məsləhətləşmə və ünsiyyət üçün aydın prosedurları təmin edir. İşgüzar mühitin qorunub saxlanması zamanı iqtisadiyyatın yaşıllaşdırılmasına dair daha məlumatlı, etibarlı qərarların qəbul edilməsini təmin edir. .

06 Sual:

*SEQ ictimaiyyət üçün vacib olmadan ictimai idarəetmə üçün bir vasitədirmi?*

Cavab:

İctimaiyyətin iştirakı SEQ-in əsas amillərindən biridir. SEQ haqqında Protokol ictimaiyyətə müəyyən məlumatlarıa giriş hüququ ilə yanaşı, SEQ-nin əhatə dairəsini müəyyənləşdirməsində və ətraf mühit üzrə hesabat layihələrində iştirak etmək və fikirlərini ifadə etmək hüququ verir. Bu prosesin daha effektiv olmasını təmin etmək üçün SEQ üzrə Protokol nəzərdə tutulan planların və ya proqramların qeyri-texniki xülasəsinəxüsusi tələbqoyur. Bu, əsasən, hər kəsin planlaşdırma orqanlarının nə təklif etdiyini, hansı alternativlər irəli sürdüyünüvə hər bir alternativin nəticələrinin nədən ibarət olduğunuaydın şəkildə başa düşə bilməsi üçün xüsusi olaraq hazırlanmışdır. SEQ haqqında Protokola uyğun olaraq, milli SEQ qanunvericiliyi də ictimaiyyətin iştirakına dair müddəaları  özündə əhatə etməlidir.

### Nümunə 6:
### SLOVAKIYA

Slovakiyanın "Enerji Siyasəti-2000" üzrə tətbiq edilən SEQ bu siyasətin hazırlanmasınınilkin mərhələsində başlanılmışdır. İqtisadiyyat Nazirliyi QHT-lər tərəfindən şərh üçün bir enerji siyasətinin konturunu hazırladı, sonra parlament görüşləri zamanı sənədin müzakirəsini təmin etdi. Enerji siyasətinin layihəsinin tam mətni internet vasitəsilə və hökumət ofislərində təqdim edilmişdir.  İnternet və İdarəçilik ofisləri  vasitəsilə enerji siyasətinin mətninin ilkin süräti ictimai müzakirəyə təqdim edildi. İqtisadiyyat xəbərlərində təkliflərin təqdim edilməsinə dəvətlə birgə ictimai elan yerləşdirildi. İki ay ərzində mətnin ictimaiyyət tərəfindən nəzərdən keçirilməsi və şərhlərin təqdim edilməsi üçün müəyyən edildi. 400-dən çox şərh alındı.

Mənbə: Strateji ekoloji qiymətləndirmədə, UNECE-də ictimaiyyətin iştirakı ilə yaxşı praktik tövsiyələr

### Nümunə 7:
### İSPANİYA

İspaniyanın Davamlı Kənd İnkişafı Proqramının hazırlanmasında ictimaiyyətin iştirak prosesi təxminən 700 cavab və proqramın təkmilləşdirilməsi üçün təxminən 1 200 təkliflə nəticələnmişdi. Bunlardan 46%-i proqram tədbirləri, SEQ və kənd strategiyası haqqında idi. Bu təkliflərin 85%-i qəbul edildi. Bütün qorunan təbiət sahələri üçün suların təmizlənməsi, ətraf mühit şərtlərinin tətbiq edilməsi və yerli və regional səviyyədə qərarların qəbulu zamanı ictimaiyyətin iştirakı təmin olunmuşdu.

Mənbə: Strateji ekoloji qiymətləndirmədə, UNECE 2014-də ictimaiyyətin iştirakı ilə yaxşı praktik tövsiyələr

## SEQ BAHA BAŞA GƏLƏCƏK  SƏHVLƏRİ ÖNLƏYİR

SEQ ölkələrə ekoloji cəhətdən davamlı inkişaf imkanları barədə erkən xəbərdarlıq siqnalları verərək ətraf mühit və sağlamlıq təsirlərinin laqeyd qalmasına səbəb olan region üçün baha başa gələcək səhvləri önləməyə kömək edir. Baha başa gələn zərərlərin aradan qaldırılması və ya səhvlərə düzəlişlər, misal üçün, obyektlərin köçürülməsi və qurğuların yenidən layihələndirilməsi kimi  riskləriazaldır. Bu zaman və pula qənaət edir.

### Nümunə 8:
### AZƏRBAYCAN

2015-2020-ci illərdə Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsi üzrə Milli Strategiyaya SEQ tətbiq edilmişdir. Strategiyanın nisbətən ümumi olmasına və potensial layihələrin təxmini həcminə və ya müəyyən layihələrin həyata keçiriləcəyi ərazilərə dair dərin dəqiqləşdirilmələr aparmadan bərpa olunan enerji inkişafı üçün yalnız əsas prioritetləri nəzərdə tutsa da, SEQ quşların miqrasiya dəhlizi ilə üst-üstə düşən və ya dəniz sahili sularda həssas ərazilərə zərərli təsirləri ehtimal edilən müəyyən qəbildən olan bərpa olunan enerji mənbələrinin inkişafı layihələrinin icrasının yol verilməməsi lazım olan həssas sahələri müəyyən etməyə kömək etmişdir. Beləliklə, gələcəkdə bərpa olunan enerji istehsalı və layihələrin hazırlanması zamanı əsasən ekoloji dəyişikliklərin təsirinə məruz qalmayan sahələrə diqqət yetiriləcəkdir.

Mənbə: Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

### Nümunə 9:
### Aral Dənizi

Aral dənizinin faciəsi inkişaf planları və proqramlarının ekoloji, sosial və sağlamlıq təsirləri nəzərə alınmadığında baş verə biləcək hadisələrin dramatik nümunəsidir. Aral dənizi dünyanın dördüncü böyük gölü idi və inkişaf etməkdə olan balıqçılığı, bol canlı aləmi və ətrafında sıx məskunlaşmanı özündə cəmləşdirmişdi. İndi isə sıradan çıxmış suvarma infrastrukturu olan və duzsuz pestisidlər, gübrələr və digər kimyəvi maddələr ilə zəhərlənmiş paslı gəmilərlə çirklənmiş  səhalaşmış tullantı ərazisinə çevrilmişdir. 1960-cı illərin əvvəllərində Sovet hökuməti Aral dənizini qidalandıran iki çayı- cənubda Amu Dərya və şərqdə Sır Dərya çayını düyü, qovun, taxıl və digər bitkilərin yetişdirilməsi üçün çöl sulanmasına yönəltmək qərarına gəlmişdi. Aral dənizində bir vaxtlar, 40 minə yaxın işçi ilə təmin edilmiş və əsasən bütün Sovet İttifaqının balıqtutma üzrə altıda bir istehsalını icra edən balçılıq sənayesi məhv olmuş, , və orijinal sahillər boyunca köhnə balıqçılıq şəhərləri gəmi qəbirləri halına gəlmişdir. SEQ gələcəkdə ətraf mühit nəticələrini təxmin etmək və uyğun inkişaf alternativlərini təmin etməklə belə ölümcül planlaşdırma səhvlərinin qarşısının alınmasına kömək edə bilər.

## SEQ ƏTRAF MÜHİTƏ TƏSİRİN QİYMƏTLƏNDİRMƏ (ƏMTQ) PROSESNİ GÜCLƏNDİRİR

SEQ Plan və proqramlarda ətraf mühit və sağlamlıq məsələlərini strateji mərhələdə müəyyənləşdirməklə layihə səviyyəsində tətbiq edilən ƏMTQ-lərin gücləndirilməsinə və təkmilləşdirilməsinə kömək edir. SEQ layihə səviyyəsində başa çatdırılması çətin olan təsirləri həll edə bilər. Burada xüsusilə də, SEQ habelə ƏMTQ obyekti olan layihələrlə zəncirvari əlaqəsi olan fərdi kiçik miqyaslı layihələr nəticəsində baş verən, geniş miqyaslı və kumulyativ təsirlər barədə erkən xəbərdarlıqları təmin edə bilir.

06 Sual:

*SEQ –in funksiyası ƏMTQ çərçivəsində icra edilən işini təkrarlayırmı?*

Cavab:

ƏMTQ və SEQ iqtisadi inkişafın ətraf mühitə və insan sağlamlığına hər hansı bir mənfi təsirinin qarşısını almaq üçün nəzərdə tutulmuş ekoloji qiymətləndirmənin prosedur alətləridir. Lakin, onlar fəaliyyət növlərinə və qiymətləndirmə sahəsinə münasibətdə əhəmiyyətli dərəcədə fərqlənirlər.

Fərdi layihələr üçün ƏMTQ ilə müqayisədə, SEQ qərar qəbuletmə prosesində daha əvvəl müdaxilə edir və hökumətin plan və proqramlarını, eləcə də siyasət və qanunvericiliyini hədəfləyir. ƏMTQ konkret layihənin ətraf mühitin vəziyyətinə fiziki təsirlərinə baxdığı halda, SEQ təklif olunan strateji sənədin icrasının dövlətin müəyyən etdiyi mühüm ətraf mühit məqsədlərinə nail olmasına nə dərəcədə manеə olduğuvə ya bu hədəflərin təmin edilməsini necə asanlaşdırdığını təhlil edir. Bununla yanaşı, SEQ planlaşdırmanın çox erkən mərhələsində fərdi layihələrin də ümumi təsirlərini müəyyənləşdirə bilir.

SEQ-in plan və proqramlara səmərəli tətbiqi müəyyən qəbildən olan inkişaf növü üçün ən uyğun yerləşmə sahələrinin təyin edilməsinə, mümkün alternativlərin sayının azaldılmasına, habelə sonrakı ƏMTQ-lədə detallı şəkildə müzakirə edilərək aradan qaldırılması zəruri olan xüsusi problemlərin öncədən müəyyən edilməsi yolu ilə sonrakı layihə səviyyəsində tətbiq edilən ƏMTQ-lərin təkmilləşdirilməsinə kömək edə bilər. Nəticədə, SEQ ƏMTQ-nin əhatə dairəsini daraldır və ümumi planlaşdırma prosesini daha səmərəli və daha az işgüzar edə bilər.



## Nümunə 10:
## İNDONEZİYA

İndoneziyanın "İqtisadi inkişafının sürətləndirilməsi və genişləndirilməsi üçün 2011-2025 illər üzrə Milli Master Planı"na tətbiq edilən SEQ, Baş Plan üzrə icrası nəzərdə tutulan çox sayda fəaliyyətlərin ehtimal olunan kumulyativ təsirlərinin mövcud ətraf mühitə təzyiqlər fonunda qiymətləndirilməsini hədəfləmişdir. Məsələn, Böyük Cakarta bölgəsi üçün, SEQ sahədəki bir sıra yeni nəzərdə tutulan sənaye sahələrindən hava emissiyalarını müəyyən etmişdir. Nəticələr göstərmişdir ki, Master Planın həyata keçirilməsi ilə əlaqədar yüksək həcmli CO, NOx, SOx və PM kimi əlavə kimyəvi çirkənləmələr gözlənilir ki, bu da yüksək hava çirkliliyi olan ərazilər üçün təhlükəlidir. Bu nəticələrə əsasən, SEQ müəyyən ərazilərdə təklif olunan bir sıra sənaye layihələrinin azaldılmasını, sıx məskunlaşan ərazilərdən bəzi layihələrin reallaşdırılmasını və hava keyfiyyətinin modelləşdirilməsi kimi əlavə ƏMTQ təlimatlarını hazırlamağı təklif edir.

Mənbə: DHI Su & Ekologiya və Integra Consulting Ltd. 2015

## SEQ ƏTRAF MÜHİT DİPLOMATİYASINI YAXŞILAŞDIRIR VƏ BİR SIRA MÜMKÜN BEYNƏLXALQ MÜNAQİŞƏLƏRİN QARŞISININ ALINMASINA YARDIM EDİR

SEQ birgə qorunan ərazilərin, su yollarının və transsərhəd yollarının çirklənməsinə yönəlik çətin məsələlərin həlli naminə regional əməkdaşlıq üçün mühüm bir sahə ola bilər.

Nəzərdə tutulan plan və ya proqram Protokola  Tərəf bir ölkənin milli sərhədlərindən kənarda ətraf mühitə və sağlamlığa təsir göstərə biləcəyi hallarda, SEQ üzrə Protokol məlumatların bölüşdürülməsi və milli sərhədlərdən kənardaməsləhətləşmələrin keçirilməsi üçün aydın prosedurlar müəyyən etmişdir. İnkişaf planlarını və layihələri təşəbbüs edən, vətəndaşları, eləcə də ərazisi həmin strateji sənədlərin icrasından ehtimal edilən transsərhəd və uzaqməsafəli ətraf mühit çirklənmələrlə əhəmiyyətli təsirlərə məruz qala bilən milli hökumətlər arasında qarşılıqlı dialoq mümkün siyasi və bu mənşəli beynəlxalq münaqişələrin qarşısını almağa, regional və qlobal sabitliyə kömək edir.

Həqiqətən, bir inkişaf strategiyası çərçivəsində planlaşdırılan fəaliyyətin fərdi investoru daha sonra milli orqanların və ya ictimaiyyətin və ya potensial təsirə məruz qalmış bir ölkənin etirazına səbəb olacaq fəaliyyət üçün risk etmir. Belə yanaşma isə öz növbəsində müvafiq layihənin icrasında gecikmələri və itkini aradan qaldırır.

06 Sual:

*SEQ haqqında Protokola tərəf bir ölkə digər tərəf ölkələrin strateji əhəmiyyətə malik olan proqramlarını, plan və layihələrini hazırlamasına maneə törədə və ya onu dayandıra, və ya siyasi və ya iqtisadi təzyiq üçün istifadə edə bilərmi?*

Cavab:

SEQ haqqında Protokol, plan və ya proqramın icrasına təsir etmək üçün hər hansı tərəfə veto hüququ vermir. Hökumət plan və ya proqramın icrası ilə bağlı qərarlar qəbul etməkdə müstəqil suveren huququnu özündə saxlayır. Protokol yalnız digər ölkələrin potensial təsirinə məruz qaldıqda məsləhətləşmələr tələb edir. Bu halda, həmin ölkələrə öz narahatlıqlarını bildirmək və plan və ya proqrama cavabdeh olan hökumətlə narahatlıqları birgə həll etmək üçün dialoqa girmək imkanı verilməlidir. Məsləhətləşmələrin nəticələri nəzərə alınmalı və lazım gəldikdə qərar qəbuletmə prosesinə inteqrasiya olunmalıdır.

## Nümunə 11:
## POLŞA

Lubuskie şəhəri üçün nəzərdə tutulan Voivodeship Ərazi İnkişaf Planı regional inkişaf və torpaqdan istifadə planı olub, 2007-ci ildə dəyişdirilmişdir.
Lubuskie Voivodeship ərazisi, Almaniya ilə sərhədin yaxınlığında yerləşir. Bu bölgə Almaniyanın və Polşanın digər hissələrinin, Odra çayı suyunun (Avropa ekoloji dəhlizi), təbii sərvətlər (xüsusən enerji resursları), meşə və kənd təsərrüfatı torpaqlarının böyük əraziləri ilə əlverişli təbii landşaftlara, əlverişli nəqliyyat yollarına malikdir.

Polşa qəbul etmişdir ki, planın icrası Almaniya ərazisi üçünətraf mühitə və sağlamlığa mühüm transsərhəd təsirlərə səbəb olacaqdır. Transsərhəd SEQ prosedurunun nəticəsi olaraq, müvafiq Polşa orqanı Almaniya ictimaiyyətindən 1 099 şərh və Brandenburq və Saksoniyanın iki rəsmi bəyanatını qəbul etdi ki, bu da bələdiyyələrin və digər maraqlı Alman hakimiyyətlərinin fikirlərini əhatə etmişdir. Qəbul edilmiş planda Almaniyadan olan şərh və təkliflərin nə dərəcədə nəzərə alındığını və nə dərəcədə istifadə olunduğunun bir xülasəsi hazırlanmışdır. Almaniya SEQ sənədlərindən tam razı qaldığından bu ölkələr arasında heç bir sual və narahatlıq qalmadı.

Mənbə: UNECE Öyrənilmiş dərslər: Regional səviyyədə Yerli İnkişafın Planlaşdırması, Polşa, Lubuskie Voivodeship, Almaniya ilə (Brandenburg və Saksoniya)



## SEQ SEKTORLAR ARASI ZİDDİYƏTLƏRİN QARŞISINI ALIR

SEQ sektorlararaası ziddiyyətlərin qarşısını almaq üçün planlaşdırma və alternativ təkliflərin ən erkən mərhələsində bir planın və ya proqramın digər plan və proqramlara təsirini araşdıraraq ölkənin müxtəlif iqtisadi sektorları arasında potensial münaqişələrin qarşısını almaqda kömək edə bilər.

### Nümunə 12:
### NORVEÇ

Norveç Su Energetikası və Enerji İdarəsi (NVE), dənizdə külək enerjisinin inşası üçün SEQ-i həyata keçirmişdir. SEQ-in məqsədi 15 əvvəlcədən təyin edilmiş zonalardan hansılarının lisenziyalaşdırma üçün açılmaq üçün münasib olması barədə qərar qəbul etmək və Hökumət üçün mümkün olan ən yaxşı seçim bazasınıtəmin etmək olmuşdur. SEQ 15 zonanın hər biri üçün ekoloji  təsirin, biznesin və ictimai maraqların, eləcə də texniki-iqtisadi uyğunluğun hərtərəfli qiymətləndirilməsinə əsaslanırdı. NVE tərəfindən seçilmiş və tövsiyə olunan beş zona həm sualtı-sabit qurğular, həm də üzən turbinlər üçün icazə verilmişdir. Bu beş zona yaxşı texniki-iqtisadi şəraitinə, 2025-ci ilədək şəbəkə əlaqələrinin yaxşı perspektivlərinə görə, eləcə də digər zonalar üçün müəyyən edilmiş tələblərə nisbətən daha az ümumi təsirlərə səbəb olacağına görə seçilmişdir. Burada digər təsirlər sırasında ətraf mühitə təsirlər, sektorlararası maraqların toqquşmasına dənizin digər faktiki və potensial istifadəçiləri, belə kibalıqçılıq, neft və qaz hasilatı sənayesi, landşaft və açıq hava fəaliyyəti, eləcə də turizm sektorları arasındakı qarşıdurmalar nəzərdə tutulur.

Mənbə: Dəniz Araşdırma İnstitutu, Norveç

## SEQ-in TƏTBİQİ YENİ İŞ YERLƏRİ YARADIR VƏ ÖLKƏDƏ İŞSİZLİYİN AZALMASINA SƏBƏB OLUR

Bir SEQ sisteminin qəbul edilməsi və həyata keçirilməsi həm dövlət qulluğu, həm də özəl sektorda ekologiya və səhiyyə mütəxəssisləri üçün yeni iş yerlərinin yaradılması deməkdir.
Bir çox hallarda bir ölkə ətraf mühitə təsirləri və insan sağlamlığı qiymətləndirmələrini aparmaq üçün kifayət qədər təcrübəyə malikdir. Buna baxmayaraq, SEQ-in praktiki həyata keçirilməsi üçün ölkələr SEQ proseslərinin necə təşkil ediləcəyini və hər bir sektor üçün analitik vasitələrin istifadəsini bilən mütəxəssislərə də ehtiyac duyurlar.

Protokol çərçivəsində BMT-nin AİK-in Katibliyi, Protokola daha çox Tərəfin daxil olmasını təmin etmək məqsədi ilə ölkələrin öz daxilində SEQ sistemlərini qurmasını və həyata keçirməsini təşviq edir və  onlara qanunvericiliklə bağlı məsləhət və texniki dəstək verməyə çalışır.
SEQ-in inkişafı üçün ən yaxşı vasitə onu tətbiq etməkdir. Bu məqsədlə mütəmadi olaraq pilot SEQ-lər və təlim kursları təşkil edilir. Bu kursların əsas hədəf qrupları hökumət orqanları, ətraf mühit qurumları, ekspertlər və SEQ-in tətbiqində iştirak edən hər şəxsdir.

## SEQ İQLİM DƏYİŞİKLİYİNƏ UYĞUNLAŞMA ÜÇÜN VASİTƏDİR

SEQ iqlim dəyişikliyi ilə bağlı amillərin inkişaf planına daxil edilməsi ilə iqlim dəyişikliyinə uyğunlaşma və iqlim dəyişikliyi nəticəsində yaranmış nəticələrin yüngülləşdirilməsi üçün səmərəli vasitə ola bilər. SEQ xüsusilə də regional inkişaf planlaşdırması, şəhər və kənd planlaşdırması, yaxud torpaqdan istifadənin planlaşdırılması üçün hazırlanmış proqram və planlarda iqlim dəyişikliyi ilə bağlı təsirlərin nəzərə alınması üçün faydalı mexanizmdir.[15]

### Nümunə 13:
### HOLLANDİYA

Suyun idarə olunması Hollandiyanın sosial-iqtisadi inkişafı üçün hər zaman çox əhəmiyyətli olmuşdur, çünki ölkənin 25%-i və ümumi əhalinin yarısı dəniz səviyyəsindən aşağıda yaşayır. 2010-cu ildən bəri Reyn çayının hövzəsində yaşayan təxminən 2 milyondan artıq sakinini iqlim dəyişikliyi ilə əlaqədar olaraq su səviyyəsinin yüksəlməsindən qorumaq üçün Holland hökumətinin “Çay üçün yer” Proqramı fəaliyyət göstərir. Bu proqramın məqsədi daşqınlara qarşı təhlükəsizlik səviyyəsinin qorunub-saxlanılması, su hövzəsi mühitinin keyfiyyətinin yaxşılaşdırılması və ekoloji dəhliz kimi çayların funksiyasının gücləndirilməsi üçün qarşıdakı illərdə (on illər boyunca) çayın sərbəst axını məqsədilə əlavə yerin təmin edilməsinə dair tədbirlər toplusunun təklif edilməsi olmuşdur. “Çay üçün yer” Proqramı üzrə SEQ aşağıdakılara yardım etmişdir:

– Təqribən 30 bölgəüzrə alternativ imkanların müəyyən olunması;
– Alternativ imkanların müsbət və mənfi tərəflərinin müqayisə edilməsi;
– İqlim dəyişikliyinin təsirinə məruz qalmış insanlar və qurumlarla məsləhətləşməklə üstün tutulan alternativ imkanların seçilməsi;
– Zəruri olan güzəştlər üzrə maraqlı tərəflər arasında müzakirələrin aparılması..

SEQ iqlim dəyişikliyinə uyğunlaşma alternativləri iləbağlı sosial və iqtisadi xərclərin və faydaların göstərilməsi üçün inteqrasiyalı yanaşmanı təqdim etmişvə gələcək layihələr üçün, xüsusilə də sakinlərin köçürülməsi zəruri olan ərazilərdə icra edilən layihələr ilə bağlı ictimai dəstəyin əldə edilməsi məqsədilə qərar vermə prosesinə iştirakçıyanaşmanı təmin etmişdir.

Mənbə: Çay üçün yer proqramı (holland proqramı) [17]

## 07 ÖLKƏ SEQ ÜZRƏ PROTOKOLA NECƏ QOŞULA BİLƏR?

Protokol Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlərə açıqdır. Ölkənin Protokola qoşulması üçün Espoo Konvensiyasının Tərəfi olması zəruri deyil.

Protokolun həyata keçirilməsinə hazır olmaq üçün hökumət protokol müddəalarının aydın və şəffaf çərçivə daxilində tətbiq edilməsi üzrə zəruri qanunvericilik, tənzimləyici və digər müvafiq tədbirləri görməlidir.

Protokola qoşulmaq üçün ölkə BMT-nin Nyu-Yorkdakı Baş Katibliyi tərəfindən ratifikasiya, təsdiq edilmə , yaxud qəbul edilmə vasitəsi olan Protokol depozitinə qol çəkir. Digər hallarda, giriş üçün depozit qoyulmalıdır. Protokola qoşulma üzrə bu prosedur BMT AİK-in üzvü olub-olmamasından asılı olmayaraq, BMT-nin bütün üzvləri üçün səciyyəvidir.

07 Sual:

*SEQ Protokoluna qoşulmadan SEQ-in həyata keçirilməsi daha yaxşıdırmı?*

Cavab:

Ölkə SEQ Protokoluna qoşulmadan milli SEQ sistemi yaratmaqla bir çox üstünlükləri əldən verir. SEQ  Protokolu Tərəflərin (üzvlərin) və maraqlı tərəflərin bir-birini qarşılıqlı surətdə dəstəklədiyi, ətraf mühit və insan sağlamlığının daha yaxşı qorunması istiqamətində ortaq hüquqi və institusional çərçivə yaradır. Protokolun əsas və köməkçi qurumlarının iclasları Tərəflər arasında təcrübə və bilik mübadiləsinin aparılması üçün ünsiyyət şəbəkəsini təmin edir. Tərəflərin Protokolun icra vəziyyəti ilə bağlı müntəzəm hesabat verməsi faydalı istinad materialıdır.  Müqavilə orqanları və katiblik məsləhətçilik xidmətləri göstərirlər. Uyğunluq məsələləri ilə bağlı yardım tələb olunarsa, yaxud digər Tərəflər Protokol çərçivəsində öz öhdəliklərinə uyğun gəlmə ilə bağlı problemlərlə üzləşərsə, o zaman kömək üçün İcraiyyə Komitəsinə müraciət etmək olar. Eyni zamanda, Protokol çərçivəsində iş planları da SEQ-in tətbiqi üzrə pilot layihələr və ya təlim kursları kimi donor təşkilatlar tərəfindən maliyyələşdirilmiş potensialın formalaşdırılması fəaliyyətlərinə imkan yaradır.

Protokol uğurlu olduğu sübut edilmiş praktiki bilik və təcrübələrə və BMT AİK-in təcrübələrinə əsaslanır. SEQ proseduru üzrə yekunda əldə olunacaq birgə standartlar tərəfdaş ölkələr arasında mübadilə və kommunikasiyanı asanlaşdıran effektiv və vahid sistem yaradır. Bu cür etibarlılıq səviyyəsi  investisiyanın qoyulması üçün əlverişlidir və buna görə də adətən beynəlxalq maliyyə təşkilatlarından kredit və qrantların əldə edilməsi üçün SEQ üzrə beynəlxalq standarta uyğunluq tələb olunur. Öz şəxsi SEQ çərçivəsini qəbul edən ölkə Protokol şərtlərinə uyğun gələ bilər, lakin həmin ölkə Protokol Tərəfi olmazsa, onda Protokolun  üstünlüklərindən faydalana bilməz.  Ölkə Protokol Tərəfi olmaqla, SEQ üzrə beynəlxalq səviyyədə qəbul olunmuş standartlar üzrə öhdəliyini, o cümlədən ətraf mühitin qorunması və uğurlu idarə edilməsi ilə bağlı prinsiplərə dəstək olduğunu göstərir.

SEQ Protokolu müvafiq Aİ qanunvericiliyinə uyğundur. Buna görə də, SEQ üzrə Protokoll uyğun gələn milli SEQ qanunvericiliyi Avropa İttifaqı ilə Assosiativ Saziş bağlamaq niyyətində olan, yaxud onu planlaşdıran ölkələrə həmin tələblərə cavab vermək üçün yardım edir.

## Espo Konvensiyasının təşkilati strukturu



## 07 Sual:

*Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrindəki hazırki OVOS-ekspertiza sistemlərinin SEQ Protokoluna uyğun gəlməsi üçün plan və proqramlara genişləndirilməsi kifayət edirmi?*

## Cavab:

Ənənəvi OVOS/Dövlət Ekoloji Ekspertiza (DEE) sistemləri SEQ üzrə beynəlxalq təcrübələrə çox uyğun gəlmir və SEQ Protokolunun səmərəli şəkildə icrasına imkan vermir. Bu sistemlər konsepsiyalarına görə müxtəlifdir. OVOS sistemində ətraf mühitin qiymətləndirilməsi əsas diqqəti milli texniki-ekoloji standartlara yönəldir və milli standartlarla aydın şəkildə tənzimlənilməmiş məsələlər qiymətləndirmənin əhatə dairəsindən kənarda qalır. SEQ sistemi çərçivəsində ətraf mühitin qiymətləndirilməsi önləyici xüsusiyyətə malikdir və ciddi təsirlərin (həmin təsirlər ətraf mühit üzrə milli standartlara daxil edilməsələr belə), o cümlədən alternativ seçimlərin hazırlanmasını və yumşaltma tədbirlərinin nəzərə alınmasını tələb edir. Bundan başqa, OVOS/DEE sistemi çərçivəsində plan və proqramlar üzrə ekoloji qiymətləndirmə ətraf mühit qurumları tərəfindən icra edilir. Bunun əksinə olaraq, SEQ sözügedən plan və yaxud proqramın hazırlanması üzrə məsul sektoral qurumlar tərəfindən həyata keçirilir.

Mənbə: BMT AİK : SEQ üzrə BMT AİK-in Protokoluna uyğun olaraq SEQ-in tətbiq edilməsi ilə əlaqədar olaraq hüquqi və institusional strukturların yenidən formalaşdırılması üzrə Praktiki Təlimat Kitabı (2016)

| | SEQ | OVOS/DEE* |
|---|---|---|
| NƏZƏRDƏN KEÇİRMƏ (SKRİNİNQ) | ✓ | ✗ |
| ƏHATƏ DAİRƏSİNİN MÜƏYYƏN OLUNMASI (scoping) | ✓ | ✗ |
| ƏTRAF Mühit ÜZRƏ HESABAT | ✓ | ✗ |
| İCTİMAİYYƏTİN İŞTİRAKI | ✓ | ✗ |
| ƏTRAF Mühit VƏ SƏHİYYƏ QURUMLARI İLƏ MƏSLƏHƏTLƏŞMƏLƏR | ✓ | ✗ Yalnız ilkin plan və ya proqram layihəsi əsasında |
| TRANSSƏRHƏD MƏSLƏHƏTLƏŞMƏLƏR | ✓ | ✗ DEE, yaxud ekologiya və səhiyyə qurumları tərəfindən təsdiqlənmə |
| ƏTRAF Mühit ÜZRƏ HESABATDA QEYD OLUNMUŞ MƏSLƏHƏT VƏ TÖVSİYƏLƏRLƏ BAĞLI NƏTİCƏLƏRİN YEKUN PLANA, YAXUD PROQRAMA DAXİL EDİLMƏSİ | ✓ | ✗ |
| MONİTORİNQ | ✓ | ✗ |

*DEE –Dövlət Ekoloji Ekspertizası

1 Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə konvensiya əsasında Strateji Ekoloji Qiymətləndirmə Protokolu. Birləşmiş Millətlər Təşkilatı. Müqavilələr Toplusu, XXVII cild, No 34028, http://www.unece.org/fileadmin/DAM/env/eia/documents/legaltexts/protocolenglish.pdf linkindən əldə olunub.

2 http://www.unece.org/index.php?id=27379 linkindən əldə olunub.

3 http://www.unece.org/index.php?id=30823 linkindən əldə olunub.

4 Ətraf mühit üzrə konkret plan və proqramların təsirlərinin qiymətləndirilməsi üzrə Avropa Parlamentinin və Avropa Şurasının 27 iyun, 2001-ci il tarixli 2001/42/EC nömrəli Direktivi

5 Ratifikasiyaların ən sonuncu vəziyyətini görmək üçün zəhmət olmasa aşağıdakı linkə daxil olun: https://treaties.un.org/Pages/ViewDetails. aspx?src=TREATY&mtdsg_no=XXVII-4-b&chapter=27&lang=en

6 Şərqi Avropa ölkələri – Belarus, Moldova Respublikası, Rusiya Federasiyası, Ukrayna; Qafqaz ölkələri-Ermənistan, Azərbaycan, Gürcüstan; Mərkəzi Asiya ölkələri-Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan.

7 OVOS birbaşa tərcümədə “ətraf mühitə təsirin qiymətləndirilməsi” kimi təsvir olunan akronimdir (rus dilində). Buna baxmayaraq, ənənəvi OVOS sisteminin istifadə edildiyi bəzi Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrində bu yanaşma Espoo Konvensiyası ilə tələb olunan ƏMTQ prosedurundan konseptual və prosedur baxımdan fərqlənir (daha çox təfərrüat üçün Sual 10-a baxın).

8 Protokola əsasən, “plan və proqramlar” dedikdə, qanunverici, tənzimləyici yaxud inzibati prosedurlar ilə tələb oluna, qurum tərəfindən hazırlanacaq və/və yaxud qəbul ediləcək, ya da ki parlament və ya hökumət tərəfindən rəsmi prosedurla təsdiq edilməsi üçün qurum tərəfindən hazırlanmış planlar və proqramlar (və onlara dəyişikliklər) nəzərdə tutulur. (Maddə 2.5).

9 http://www.unece.org/fileadmin/DAM/env/eia/meetings/2015/Jan_semi- nar_Moscow._Russia_EIA_and_SEA/SEA_elements.pdf linkində onlayn formada mövcuddur.

10 http://www.unece.org/fileadmin/DAM/env/eia/Publications/2015/ECE. MP.EIA.SEA._REVTA_TYPO3_ENG.pdf linkində onlayn formada mövcuddur.

11 http://www.unece.org/fileadmin/DAM/env/eia/Publications/2015/ECE. MP.EIA.SEA._REVTA_TYPO3_ENG.pdf linkində onlayn formada mövcuddur.

12 http://www.unece.org/fileadmin/DAM/env/eia/Publications/2015/ECE. MP.EIA.SEA._REVTA_TYPO3_ENG.pdf linkində onlayn formada mövcuddur.

13 http://www.unece.org/index.php?id=27379 linkindən əldə olunub.

14 http://ec.europa.eu/environment/archives/eia/eia-studies-and-reports/eia-costs-benefit-en.htm linkindən əldə olunub.

15 https://www.unece.org/fileadmin/DAM/env/eia/documents/mop6/2_Fact_Sheet_Study_Case_on_SEA_long_version.pdf linkindən əldə olunub.

16 Strateji Ekoloji Qiymətləndirmə üzrə Protokol Tərəflərinin İclası kimi çıxış edəcək “Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə konvensiya tərəflərinin birinci iclası” Cenevrə, 20?23 iyun 2011. http://www.unece.org/fileadmin/DAM/env/docu- ments/2011/eia/sea/ece.mp.eia.sea.2011.L.3.e.pdf linkindən əldə olunub.

17 12/02/2016 at [https://www. ruimtevoorderivier.nl/english/] linkindən əldə olunub.

## Akronimlər və abreviaturalar

**KO:** Karbon monoksid
**AİŞT:** Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı
**EaP GREEN:** Şərq Tərəfdaşlığı ölkələrində iqtisadiyyatın yaşıllaşdırılması proqramı
**ƏMTQ:** Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi
**Espoo Konvensiyası:** Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə konvensiya
**CİS:** Coğrafi İnformasiya Sistemi
**QHT:** Qeyri-hökumət təşkilatı
**NOx:** Nitrogen oksid
**İƏİT:** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
**OVOS:** Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyada "ətraf mühitə təsirin qiymətləndirilməsi" prosesinə ekvivalent yanaşma (rus dilində)
**SM:** Atmosferdəki sərt maddələr
**DİI:** Dayanıqlı İstehlak və İstehsal
**SEQ:** Strateji Ekoloji Qiymətləndirmə
**DEE:** Dövlət Ekoloji Ekspertizası
**KO:** Kükürd oksid
**BMT AİK:** BMT-nin Avropa İqtisadi Komissiyası
**UNEP:** BMT-nin Ətraf Mühit üzrə Proqramı
**UNİDO:** Sənaye İnkişafı üzrə Birləşmiş Millətlərin Təşkilatı

Daha ətraflı məlumat üçün,
Espoo Konvensiyası və SEQ Protokolu üzrə BMT AİK-in
Katibliyi ilə əlaqə saxlayın.
Tel: +41 22 917 1723
Faks: +41 22 917 0107
E-mail: eia.conv@unece.org
Veb-sayt: www.unece.org/env/eia

**Strateji Ekoloji Qiymətləndirmə Protokolu**

Faktlar və faydalar

EaPGREEN
Partnership for Environment and Growth

This project is funded by the EU

OECD
BETTER POLICIES FOR BETTER LIVES

BMT AİK

UNEP

UNIDO

İnformasiya Xidməti
BMT-nin Avropa İqtisadi Komissiyası

Palais des Nations
CH - 1211 Cenevrə 10, İsveçrə
Telefon: +41(0)22 917 44 44
Faks: +41(0)22 917 05 05
E-mail: info.ece@unece.org
Veb-sayt: http://www.unece.org